Xalq qəzeti .- 2025.- 5 iyun (№ 116).- S.12.

5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

# Hamımızın yaşıl dünyası

## *Ağaclar həyatı nurlandıran çıraqdır*

**"Hər kəsin bir ulduzu var" – deyirlər. Bəs hər kəsin ağacı necə? Ehtimal ki, bu suala müsbət cavab verənlər çox olacaq. Çünki bizim həyatımız bu və ya digər şəkildə ağaclarla bağlıdır. Xüsusilə kənddə doğulanlar ağacların həyatımızda necə əhəmiyyətli bir rol oynadığını təsdiq edə bilərlər. Kənd uşaqlarının çoxunun beşiyi ağacın altında qurulub, yüyrüyü ağacdan asılıb. Ağacdan asılan yelləncəklərdə yellənə-yellənə böyümüşük.**





Ağac elə təkcə meyvəsi ilə qidalanmaq, kölgəsində dincəlmək üçün deyil ki?... Ağac ev üçün ən yaxşı tikinti materalıdır, döşəmə, sürahi, pilləkən ağac materiallarla inşa edilir. Ağac odun-ocaqdı, qışda cırtacırtla yanan odun sobasından gözəl nə ola bilər? Ağac beşikdə böyüdüyümüz kimi qocalanda da ağac tabuta girib dünyadan köçürük. Deməli, doğulandan son mənzilə qədər ağac bizim yol yoldaşımız, dostumuz, sirdaşımızdır. Bəlkə də elə buna görə dünyadan nakam gedən şair Akif Səməd məşhur şeirlərindən birində "Ağac yaxın, daş doğmadı, Adamdan Akif Səmədə" deyirdi.

Elə sənət adamı, elə yazıçı və şair var ki, onun adını çəkəndə hansısa bir ağac xatırlanır. Məsələn, rus şairi Sergey Yesenin adını çəkəndə ağcaqayın, Rəsul Rza və Nəbi Xəzrinin adının çəkilməsi çinar, Toğrul Nərimanbəyovun adı nar ağacını, aşıq Şakir Hacıyevin adı nar çiçəyini yada salır. Rəsul Rzanın çinar ağacına yazdığı şeirlərdən başqa digər şeirlərində də çinar ağacının adı tez-tez çəkilir:

**Demirəm Göyçayda basdırın məni,**
**Ancaq ki, riyakar gözlərdən uzaq**
**Aparın bir çayda basdırın məni.**
**...Yaşıl saçlarını sulara sallayan**
**Salxım söyüdlər ağlasın...**

Çinar elə bir ağacdır ki, onu bir çox yazıçılar böyük məhəbbətlə vəsf ediblər. Mərhum Xalq yazıçısı Sabir Əhmədov da doğma Cəbrayıldakı nəhəng çinarı tez-tez xatırlayırdı. Kənd həyatını ustalıqla təsvir edən yazıçının əsərlərində kəhrizin üstündəki tut ağaçı da tez-tez yad edilir.

Dramaturq kimi ədəbiyyatımıza əvəzsiz xidmətlər göstərən İlyas Əfəndiyevin yaradıcılığında təbiət əsas yerlərdən birini tutur. Onun məşhur "Söyüdlü arx" romanını xatırlamaq kifayətdir.

Məğrur və dözümlü palıd ağacı yazıçı İsi Məlikzadəyə çox doğmadır. "Dədə palıd" romanının müəllifinin digər əsərləri də bunu sübut edir. Təbiət mövzusu Xalq şairi Məmməd Arazın da yaradıcılığından qırmızı xətlə keçir. Şeirlərində müxtəlif ağacların adını çəkən və onlara çox gözəl poetik dəyər verən Musa Yaqub üçün də təbiət çox doğmadır. Həyatində dağdağan ağacı bitən şairin şeirlərində həmin ağaca həsr edilmiş xeyli şeir var. "Yenə o bağ olaydı..." şeiri Mikayıl Müşfiq üşün üzüm tənəyini doğma hesab etməyə əsas verir.

Şair Ramiz Rövşənin yaradıcılığı üçün kötüyü simvol kimi qəbul etmək olar:

**Başı kəsik gözəl kötük,**
**sızldama, göynəmə,**
**Nə baltalar, nə bıçaqlar qalacaq.**
**Ucalıqdan yıxılsan da, qəm yemə,**
**Sən yıxılan ucalıqlar qalacaq...**

Əlbəttə, nəinki şair və yazıçılar üçün, bəlkə də hər kəs üşün doğma olan hansısa ağac var. Onu bizə doğmalaşdıran yolumuzun üstündə bitməyi, ətrafında böyüməyimiz, xasiyyətimizdəki müəyyən uyğunluqlar, bənzəyişlər və s. ola bilər. Bizə doğma olan ağacları əzizləməyə və sevməyə dəyər...

***Süleyman QARADAĞLI***